CultureTalk Azerbaijan Video Transcripts: http://langmedia.fivecolleges.edu

**International Physics Olympiad**

**Azerbaijani transcript:**

T: Bakıda ailəmnən yaşamamışam, amma məktəbin son sinifində, 11-ci sinifdə oxuyanda, hətta 10-cu sinifdə oxuyanda, biz beynalxalq olimpiyadaya hazırlaşırdırıq və orada komandalara, olimpiyada komandasılara...

El G: Nə olimpiyadası idi bu?

T: Fizika.

El G: Fizika.

T: Beynalxalq Fizika Olimpiyadası. Beynalxalq Olimpiyadaya orada komandalara... Bakıda hazırlaşırdırıq. Bakı Dövlət Universitetinə gedirdik, müəllimlər orada dərs keçirdi bizə... o vaxt, demək olar hardasa bir il yaşamışam Bakıda, amma əsasən...

El G: Bir il bu Olimpiyadaya...

T: Yəni, bir il deyəndə... məktəb vaxtı hətta... mən Quba liseyinə... Quba liseyın məzunuyam, Quba Türk liseyi və komandalara gedirdik, Bakı Türk liseyində qalırdık... orada dərslərə gedirdik... gündəlik dərslərimizə orada gedirdik, və ondan artıq olaraq, Bakı Dövlət Universitetinə, Azərbaycan Pedagogik İnstituna gedirdik və orada müəllimlər bizə dərs keçirdilər... professorlar.

El G: Bu Olimpiyadada nəsə udtunuz?

T: Hə. 2002-ci ildə... uğurlu il olmuşdu Azərbaycan üçün, biz üç nəfər... dörd nəfər var idi komandada, hətta onların üçü bizim eyni məktəbdən idi...və üç qızıl, bir gümüş medal almışdıq biz.
İndoneziyada keçirilmişdir.

El G: İndoneziyada?
Amerikaya necə... nə yolnan gəlmisən?

T: Mən məktəbi qutarandan sonra, Türkiyənin Boğazıçı Universitinə qəbul olmuşdum... Boğazıçı Universitetinin fizika...

El G: Çox məşhur...

T: Türkiyədə ən yaxşı universitetlərdən biri demək olar... bir üç-dörd dənə ən yaxşı universitet varsa, onlardan biridir Boğazıçı. Orada oxuyurdum, ondan sonra... şəxsən olaraq tanımırdım, amma eşitmişdim ki, Qazaxstandan bir oğlan, o da Beynalxalq

Riyazziyat Olimpiyadasında qızıl medal almışdır, o MİT-ya qəbul olmuşdur. Apply eləmişdir... müraciyyət eləmişdir və qəbul olmuşdur, məndə düşündüm ki, bəlkə məndə...

El G: Qəbul olarsan...

T: Şansım olsa... məndə müraciyyət elədim, və beləliklə qəbul oldum.

El G: Boğazıçı Universitetində neçə il oxudun?

T: Demək olar bir il yarım oxudum hardasa.

El G: Sonrada əvvəldən başladın burada...

T: Sonra əvvəldən başladım.

El G: Amerikaya gələndən sonra, Amerika cəmiyyətində sənin üçün yaşamaq çətind yoxsa asand idi?

T: Mən on altı yaşında qirmişdim İstanbula və İstanbul... yəni Türkiyə bir İslami olsada, yəni İslam cəhəttən çox... yəni bizim mədəniyyətlə... Azərbaycan mədəniyyəti və Türk mədəniyyəti çox oxşardı, amma İstanbul elə bir şəhərdi ki, bir az Avropa təhərdir və ona görə, mən evdən uzaq olmağa, belə başqa mədəniyyətə qirməyə bir az yavaş-yavaş vərdiş olmuşdum. Ondan sonra Amerikaya gələndə, çox bir belə demək olmaz ki, bir çətinnikdən üzləşdim buranın mədəniyyətinə uyğunlaşmaq baxımından burada tanıdığım uşaqlar var idi, Türkiyədən var idi uşaqlar, Qazaxstandan var idi. Başqa müsəlman... müsəlman uşaqları da var idi. Onlarnanda tanış oldum, onlarda mənə kömək elədilər buranın mədəniyyətinə daha çox uyğunlaşmağa, ona görə belə demək olmaz ki, bir...

El G: şok kimi idi...

T: Yox. Yəni şok kimi olmadı yəni. Heç belə... heç deyə... heç yadımda deyil ki, mən hansısa belə mədəniyyət baxımından bir çətinlikə üzləşdim.

**English translation:**

T: I didn't live in Baki with my family, but in the last grade, when I was in 11$^{th}$ grade, and also in 10$^{th}$ grade, we were preparing for the international Olympiad and there, the teams, the Olympic teams…

El G: What kind of Olympiad was this?

T: Physics.

El G: Physics.

T: International Physics Olympiad. The teams were getting prepared in Baki for the

international Olympiad. We went to the Baki National University; the teachers there were giving us lectures… at that time you can say… around one year I lived in Baki, but really…

El G: One year you were…

T: When I say one year… during school time as well… I am a graduate of Quba lyceum, Quba Turk lyceum and the team went and was staying at the Baki Turk lyceum… we went to classes there… for our daily classes we went there and aside from that, we went to the Baki National University and Azerbaijan Pedagogue Institute and teachers gave lectures there… professors.

El G: Did you win something on this Olympiad?

T: Yes. In 2002… it was a successful year for Azerbaijan, the three of us… there were four people in a team, and also three of them were from our school… and we won three gold and one silver medal. It was in Indonesia.

El G: In Indonesia.  How did you come to America?

T: After I finished school, I was admitted into the Bosphorus University in Turkey… Bosphorus University's physics…

El G: It's very famous…

T: You can say that it's one of the best universities in Turkey… if there are three or four of the best universities, one of them is Bosphorus. I was studying there, after that… I didn't know him personally, but I heard that one guy from Kazakhstan, he too got a gold medal at the International Math Olympiad. He got accepted into MIT. He applied… and got accepted, and I thought, maybe I could also…

El G: …get accepted…

T: If I had a chance… I applied as well, and so got accepted.

El G: How long were you studying in Bosphorus University?

T: You can say around a year and a half.

El G: And then you started over again here…

T: Then I started over.

El G: After you came to America, was it hard or easy for you to live in the American society?

T: I got to Istanbul at sixteen and Istanbul… I mean, even tough Turkey is Islamic, I mean from the point of view of Islam, it's very… with our culture… Azerbaijani culture and Turkish culture is very similar, but Istanbul is such a city. It's a bit European and that's why, I already got a little bit used to being away from home and entering into a different culture. After that, when I came to America, I can't say that I faced many challenges in terms of getting used to the culture here. There were people from Turkey, from Kazakhstan. From other Muslim… other Muslim kids. I got to know them. They also helped me to get used to the culture here, and that's why… I can't say that…

El G: it was like a shock…

T: No. It wasn't like a shock. I don't remember myself facing any hardships in terms of culture.

**About CultureTalk:** CultureTalk is produced by the Five College Center for the Study of World Languages and housed on the LangMedia Website. The project provides students of language and culture with samples of people talking about their lives in the languages they use everyday. The participants in CultureTalk interviews and discussions are of many different ages and walks of life. They are free to express themselves as they wish. The ideas and opinions presented here are those of the participants. Inclusion in CultureTalk does not represent endorsement of these ideas or opinions by the Five College Center for the Study of World Languages, Five Colleges, Incorporated, or any of its member institutions: Amherst College, Hampshire College, Mount Holyoke College, Smith College and the University of Massachusetts at Amherst.

© 2003-2009 Five College Center for the Study of World Languages and Five Colleges, Incorporated